UOT: 338.23

*Arzu Nurəddin qızı RÜSTƏMOVA*
*i.f.d., Azərbaycan Kooperasiya Universiteti*
*arzu.rustam55@gmail.com*
*10.30546/1.72.2024.4*

# QLOBAL QİDA TƏHLÜKƏSİZLİYİ PROBLEMLƏRİNİN HƏLLİ YOLLARI

*Xülasə*

Bugünkü dövrümüzdə qlobal qida çağırışlarının artdığı bir şəraitdə qida təhlükəsizliyinin gücləndirilməsi problemləri kifayət qədər aktuallığı ilə irəlidədir. Qlobal qida problemləri ilə bağlı strateji yanaşmalar və dünya dövlətləri qarşısında öhdəliklərin müəyyənləşdirilməsinə baxmayaraq, son 10-15 il ərzində bu istiqamətlərdə qarşıda duran qlobal problemlərin yalnız az hissəsi həll olunmuşdur. Dünyada hələ də 100 milyonlarla insan aclıqdan və işsizlikdən əziyyət çəkir, mühüm qida məhsulları ilə əlçatanlıqdan uzaqdırlar.

**Tədqiqatın məqsədi** – dünya əhalisinin ekoloji cəhətdən təmiz qida məhsulları ilə təmin edilməsi, dünya dövlətlərini və beynəlxalq təşkilatları bir araya gətirməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** – tədqiqat işində ümumi təkliflər,yeniliklər, müqayisəli təhlil, sistemli yanaşma metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – qlobal iqlim dəyişiklərinin təsiri altında qida təhlükəsizliyinin gücləndirilməsi, qida məhsulları istehsalının genişləndirilməsi,həmçinin artırılması,qida xammalı resurslarının formalaşdığı kənd təsərrüfatı sektoru sahələrinin və ümumilikdə aqrar sahənin yüksək texnologiyalar əsasında inkişaf etdirilməsi problemləri əsas götürülmüşdür.

**Tədqiqatın nəticəsi** – iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrdə qida təhlükəsizliyi sisteminin formalaşdırılması və gücləndirilməsi istiqamətində bu sahədə daha intensiv və səmərəli əməkdaşlıq əlaqələrinin yaradılması ölkəmiz üçün də faydalı ola bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – bu sahədə daha çox investisiyalar yatırılmalı,mühüm qida məhsullarının istehsal həcminin artırılması üçün davamlı və sistemli tədbirlər görülməli, həmçinin ölkə səviyyəsində bu qəbildən olan qida məhsulları üzrə özünütəminetmə mexanizmlərinin formalaşdırılması nəzərdə tutulur.

***Açar sözlər: qlobal qida təhlükəsizliyi, aqrar sahə, xarici ticarət fəaliyyəti, ərzaq təhlükəsizliyi.***

## *Giriş*

Dünyada başqa bir problem – qida məhsullarının təhlükəsizliyilə bağlıdır. “İstehsal – istehlak” zənciri mərhələlərinin hər birində qida məhsullarının təhlükəsizliyinin təmin olunması mexanizmlərinin müasir tələblər çərçivəsində yenilənməsi və kifayət qədər dərindən təkmilləşdirilməsi tələb olunur. Əsas strateji məqsəd isə qida məhsullarının insan həyatı və sağlamlığı üçün təhlükəsizliyin təmin olunmasıdır. Qlobal iqlim dəyişikliklərinin təsiri altında qida təhlükəsizliyinin gücləndirilməsi resurslarının itirilməsi təhlükəsi yaranmışdır. Bu sırada qida məhsullarının istehsalının genişləndirilməsi, həmçinin artırılması, ehtiyatların dünya əhalisinin artım tempinə uyğun şəkildə balanslaşdırılması problemlərinin həll edilməsi üçün tələb olunan qida xammalı resurslarının formalaşdığı kənd təssərrüfatı sektoru sahələrinin və ümumilikdə aqrar sahənin yüksək texnologiyalar əsasında inkişaf etdirilməsi, yeni qida növlərinin yetişdirilməsi və istehsalının təşkili, məhsuldarlığın yüksəldilməsinə imkan verən texnologiyaların fəal şəkildə tətbiq olunması məsələləri aktuallığı ilə diqqət çəkir.

Qlobal əhəmiyyət kəsb edən problemlərdən bir qrupu da dünya əhalisinin qida əlçatanlığının təmin olunması ilə yanaşı, qida məhsullarının keyfiyyət göstəricilərinin yüksəldilməsi və qida rasionlarının təkmilləşdirilməsi, maksimum optimal qida rejimlərinin formalaşdırılması, onların strukturunun ekoloji təmiz qida məhsulları hesabına təkmilləşdirilməsilə bağlıdır. Qida təhlükə-

sizliyinin gücləndirilməsində səhiyyə və təhsilin rolunun artırılması problemlərinin açıqlanması, əhalinin qida təhlükəsizliyi ilə bağlı strateji məqamlar üzrə maarifləndirilməsi,qidalanma mədəniyyətinin yüksəldilməsi, xüsusilə də uşaqların qida rejimlərinə ciddi önəm verilməsi problemləri də fundamental yanaşmaları,araşdırmaların aparılmasını şərtləndirir.

Qeyd edilən qlobal problemlər istər-istəməz öz təsirini Azərbaycanda da göstərməkdədir.

Ölkəmiz öz müstəqilliyini bərpa etdikdən sonra kənd təssərrüfatı sektorunun və aqrar sahənin inkişafına ciddi önəm vermişdir, davamlı islahatlar aparılmış, dövlət dəstəyi mexanizmləri tətbiq olunmuş və bu sahələrdə sahibkarlığın inkişafı strateji prioritet kimi diqqət mərkəzində saxlanılmaqdadır.

**Müasir dövrdə qida məhsullarının insan həyatı və sağlamlığı üçün təhlükəsizliyinin təmin edilməsi problemləri**

Elə problemlər var ki, onlar bütün dövrlərdə - sivilizasiyanın formalaşdığı vaxtdan müasir dövrə qədər aktual olaraq qalmışdır və şübhəsiz,bu problemlərdən biri də qida təhlükəsizliyi problemləridir. Harada yaşamasından və hansı səviyyədə yaşamasından asılı olmayaraq, insan gündəlik olaraq qida qəbul etməli və bu qidaların təhlükəsizliyi təmin olunmalıdır. İnsan həyatı və sağlamlığı üçün təhlükəsiz qida məhsullarının tədarükü və ehtiyatının yaradılması müasir dövrümüzün ən mürəkkəb və başlıca problemlərindən biri kimi qalmaqdadır.

Qlobal qida təhlükəsizliyi müasir dövrdə insanları daha çox narahat etməkdədir və dünya dövlətlərinin bu sahədə genişmiqyaslı səylərinə baxmayaraq problemlərin çox hissəsi həll edilməmiş qalmaqdadır. Bu problemlərin kökündə başqa bir ciddi məsələ - insan həyatı və sağlamlığı üçün təhlükəsiz olan qida məhsullarının yetişdirilməsi, istehsal olunması və istehlakçılara çatdırılması proseslərinin səmərəliliyi mühüm əhəmiyyət kəsb edir.

Ümumdünya Sağlamlıq Təşkilatının apardığı tədqiqatlar göstərmişdir ki,bu təşkilat tərəfindən Qlobal Strategiya işlənib hazırlanmışdır. Bu strategiyada yer almış strateji məqsədlər, metodlar, yanaşmalar, risklərin qiymətləndirilməsi, qida məhsullarının təhlükəsizliyini təmin edən yeni texnologiyaların hazırlanması məsələləri və qlobal qida təhlükəsizliyi problemləri üzrə beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətləri diqqət çəkir.

Aparılan tədbirlər nəticəsində son onillikdə dünyada qlobal qida təhlükəsizliyi problemlərinə dünya dövlətlərinin və beynəlxalq təşkilatların münasibətləri xeyli dəyişmişdir və bunlarla bağlı çoxlu sayda proqramların reallaşdırıldığı və hazırda da davam etdiyini qeyd etmək mümkündür.

Prof. E.Quliyevin fikirlərinə istinadən problemlərin əhəmiyyətli hissəsi həll edilməmiş qalmaqdadır və bütün bunlar dünya sivilizasiyasını daim narahat edən məsələlərdəndir. Təsadüfi deyildir ki, Qida təhlükəsizliyi üzrə Ümumdünya Sammitinin qəbul etdiyi Bəyannamədə qeyd edilir ki, müasir dövrdə, eləcə də yaxın perspektivdə qida məhsullarının insan həyatı, sağlamlığı üçün təhlükəsizliyinin təmin edilməsi üzrə mövcud mexanizmlərin, yanaşmaların əhəmiyyətli səviyyədə təkmilləşdirilməsi və yenilənməsi tələb olunur. [6, s. 49]

Qeyd edək ki, ərzaq təhlükəsizliyi bütövlükdə hər bir ölkənin siyasi suverenliyinin mühüm faktoru olmaqla dövlətin ərzaq müstəqilliyini şərtləndirir. Dövlətin ərzaq müstəqilliyinə nail olması ərzaq bazarının, bütövlükdə aqrar sahənin tənzimlənməsindən bilavasitə asılıdır.

İqtisadçı alim A.F.Abbasovun fikirlərinə istinadən iqtisadi təhlil və araşdırmalardan belə qənaətə gəlmək olar ki, ərzaq bazarının tənzimlənməsində başqa məqsədlərdən biri istehlakçıların və həm də kənd təsərrüfatı əmtəə istehlakçılarının maraqlarının qorunmasından ibarətdir. İstehsalçıların maraqları o halda qorunur ki, onların fəaliyyəti istehlakçıların mənafeləri ilə ziddiyyət təşkil etməsin. Ərzaq bazarının tənzimlənməsində əsas məqsəd ölkənin özünütəminetmə səviyyəsinin yüksəldilməsidir. Praktikada ərzaq təhlükəsizliyinin təmin edilməsi aqrar sahənin dövlət tənzimlənməsinin məqsədi kimi dəyərləndirilir. [7, s. 489]

Qida məhsullarının insan həyatı və sağlamlığı üçün təhlükəsizliyinin təmin edilməsi proseslərində istehsal infrastrukturunun təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Burada istehsal prosesində istifadə olunan avadanlıqların və texnologiyaların səmərəli olması, hər bir istehsal mərhələsinin və həlqəsinin optimallığı, istehsal ərazilərinin, avadanlıqlarının, tikililərin yüksək stan-

dartlar səviyyəsində olması, qida məhsulu istehsalı ilə bağlı proseslərin – xammalların daxil olmasından son məhsulun alınmasınadək olan istehsal tsiklinin nəzarət sisteminin formalaşdırılması, istehsal prosesində iştirak edən heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və s. vacib şərtlərdən hesab olunur.

Qida məhsullarının insan həyatı və sağlamlığı üçün təhlükəsizliyinin təmin edilməsi məsələləri çoxşaxəli mürəkkəb problemlərdən hesab olunur və bu problemin ictimai sağlamlıq, iqtisadi, siyasi, sosial, elmi və texniki aspektlərinin diqqətlə öyrənilməsi zəruri hesab edilir.

**Qida təhlükəsizliyinin gücləndirilməsində xarici ticarət fəaliyyətinin tənzimlənməsi**

Qida təhlükəsizliyinin gücləndirilməsi və ölkə əhalisnin mühüm qida məhsulları ilə təmin edilməsi problemləri kifayət qədər aktuallığı və vacibliyi ilə diqqət çəkir. Hər bir ölkə özünün qida təhlükəsizliyini gücləndirmək üçün müxtəlif vasitələrdən və mexanizmlərdən fəal şəkildə istifadə etməyə çalışır. Dünya təcrübəsində bir çox iqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə qida təhlükəsizliyinin təmin edilməsi və gücləndirilməsi məqsədilə xarici ticarət fəaliyyətinin üstün cəhətlərindən məhsuldar və səmərəli istifadə faydalı nümunə kimi baxıla bilər. Belə ki, dövlət tərəfindən xarici ticarət fəaliyyətinin daha işlək mexanizmlərinin yaradılması və bu sahədəki fəaliyyətinin mövcud mexanizmlərinin təkmilləşdirilməsinin tənzimlənməsi hesabına qida məhsullarının istehsalı və ehtiyatlarının yaradılması üçün daha əlverişli şərait yaratmaq mümkündür. Hələ 30-50 il bundan qabaqkı dövrlərdən başlayaraq bir çox dünya ölkələrində xüsusilə qida məhsulları təminatında kifayət qədər ciddi problemləri olan ölkədə xarici ticarət fəaliyyətinin tənzimlənməsi hesabına müxtəlif qida məhsulları üzrə idxaldan asılılığın azaldılması istiqamətində tədbirlərin görülməsinə başlanılmışdır. Başqa sözlə, nəzəri baxımdan yanaşdıqda bu istiqamətdəki tədbirləri belə təsəvvür etmək olar:”ölkədə güclü tələbat olan qida məhsuluna idxalı məhdudlaşdırmaqla”, “yerli istehsalın artımına və mütəxəssislər şəbəkəsinin yaradılmasına” üstünlük verilir. Bu halda idxal məhsullarına adətən xüsusi gömrük rüsumları tətbiq edilir, yəni onlar adi gömrük rüsumlarından xeyli yüksək olur, nəticədə həmin məhsulların ölkəyə idxalı bir o qədər səmərəli olmur və idxalın həcmi xeyli aşağı düşür, bu isə yerli bazara təsir etmək gücündə olmur. Digər tərəfdən, yerli istehsalı artırmaq şərtilə analoji məhsullar üzrə ölkəyə idxalın həcmi məhdudlaşdırılır, yəni qeyri-tarif tənzimlənməsi aparılır və bunun nəticəsində həmin məhsulların ölkə bazarına təsiri minimuma endirilir. Bu tədbirlər o vaxt yaxşı səmərə və yüksək nəticələr verir ki, bütün məsələlərə kompleks və sistemli şəkildə yanaşmalar təmin olunsun, zəruri tədbirlərin görülməsində ardıcılıq prinsipləri qorunsun.

Bundan başqa, bu məsələləri bazar iqtisadiyyatı prinsipləri əsasında da tənzimləmək mümkündür, yəni yerli istehsalın həcmini artırmaq, sahibkarlığı inkişaf etdirmək, mühüm qida məhsullarının istehsalı, tədarükü, saxlanılması, istehlakçılara çatdırılması proseslərində və müvafiq qida bazarında sağlam rəqabət mühitini təmin etmək yolu ilə həllinə nail olmaq mümkündür. Mühüm qida məhsullarının əlçatanlığının təmin edilməsi və ümumilikdə ölkədə qida təhlükəsizliyinin gücləndirilməsində ixrac potensialının artırılmasının əhəmiyyətli təsiri ola bilər. Belə ki, ixrac potensialının yüksəlməsi, yəni mühüm qida məhsulları üzrə ixrac potensialının artması sıravi bir məsələ deyildir, deməli, burada tətbiq edilən mexanizmlər kifayət qədər səmərəli olmalı və müvəqqəti təcrübəyə söykənməlidir. Əgər qida məhsulu dünya standartlarına və ixrac tələblərinə cavab verirsə və dünya bazarlarına çıxarılırsa deməli, bu məhsulun ixracatçısı olan ölkədə istehsalın müasir texnologiyalar səviyyəsinə qaldırılmasına nail olunub. Eyni zamanda ixrac potensialının əhəmiyyətli səviyyədə inkişaf etməsindən və onun rəqabətqabiliyyətliliyinin yüksəldilməsindən xəbər verir. Belə olduğu təqdirdə isə xarici ticarət fəaliyyətinin tənzimlənməsi hesabına analoji məhsullar üzrə idxalı məhdudlaşdırmaq iqtisadi baxımdan daha çox səmərə verir, yəni bu cür tədbirlər narazılığa səbəb olmur, dövlətin bu istiqamətdə gördüyü tədbirlər yerli istehsalın artımını daha da stimullaşdırır, dəstəkləyici mexanizmlər məhsuldar nəticələrin əldə edilməsinə, istehsalın infrastrukturunun gücləndirilməsinə, mühüm qida məhsulunun istehsalı və ixracı ilə məşğul olan rəqabətqabiliyyətli yeni müəssisələrin yaradılmasına, davamlı iş yerlərinin açılmasına, mövcud resursların istehsal və ixrac dövriyyəsinə cəlb edilməsinə, ehtiyatlardan və məhsuldar qüvvələrdən isti-

fadənin səmərəliliyinin artırılmasına, milli iqtisadiyyatın əlavə dəyər yaratmaq xüsusiyyətinə malik fəaliyyət sahələrinin potensialından istifadənin reallaşdırılmasına, əmək ehtiyatlarından səmərəli istifadənin gücləndirilməsinə, əsaslı təkan verilməsinə, kiçik və orta biznesin innovativ inkişafına şərait yaradılmasına, bütövlükdə ölkədə qida təhlükəsizliyinin gücləndirilməsi məsələlərinə əhəmiyyətli töhfənin verilməsinə yeni və potensial imkanlar formalaşdırır.

Ölkəmizdə qida təhlükəsizliyinin gücləndirilməsində xarici ticarət fəaliyyətinin tənzimlənməsinin əhəmiyyətini şərtləndirən amillər sırasında konseptual yanaşmaların və prinsiplərin formalaşdırılması, xarici ticarət fəaliyyətinin tənzimlənməsi mexanizmlərinin qanunvericilik bazasının yaradılması və işləkliyinin təmin edilməsi, mühüm qida məhsullarının istehsalının gücləndirilməsi və ehtiyatlarının yaradılması prinsiplərinin və meyarların praktiki fəaliyyətdə optimal gözlənilməsi, qida məhsullarının idxaldan asılılığının minumuma endirilməsi strategiyasının kompleks və sistemli baxılması, mühüm qida məhsullarının idxal əvəzedici istehsal sahələrinin səmərəliliyinin təmin edilməsi tədbirlərinin görülməsi və potensialının formalaşdırılması, qida təhlükəsizliyinin gücləndirilməsində xarici ticarət fəaliyyətinin tarif və qeyri-tarif alətlərindən məhsuldar istifadənin təmin olunması, qida təhlükəsizliyinin gücləndirilməsinə xarici ticarət siyasətinin və strategiyasının hazırlanması və reallaşdırılması, yerli istehsalın genişləndirilməsinə imkan verən idxal siyasətinin formalaşması fəal şəkildə tətbiq edilir. Qida təhlükəsizliyinin gücləndirilməsində dövlətin tənzimləyici mexanizmlərinin və siyasətinin davamlılığı təmin edilir.

Ölkə əhalisinin qida məhsullarının problemlərinin həllində fəal iştirakı, cəmiyyətin bu sahəni xüsusi diqqət mərkəzində saxlaması qida məhsullarının standartlarının təkmilləşdirilməsi baxımından əhəmiyyətli amillərdən biri kimi dəyərləndirilməlidir. Getdikcə mühüm qida məhsulları üzrə idxaldan asılılıq səviyyəsi aşağı düşməkdədir. Yerli istehsalın genişləndirilməsi hesabına vacib qida məhsullarının istehsal bazasının gücləndirilməsi prosesləri intensivləşməkdədir. Bu təqdirəlayiq bir tendensiyadır. Amma, həmin məsələlərdə mühüm qida məhsullarının istehsalı proseslərində mövcud standartların və yanaşmaların əhəmiyyətli səviyyədə təkmilləşdirilməsinə və yüksək rəqabətqabiliyyətli qida məhsullarının istehsalına nail olunmasına ciddi zərurət qalmaqdadır. Şübhəsiz, bu sahədə daha obyektiv mülahizə irəli sürmək üçün mövcud vəziyyətin dərindən öyrənilməsi, qida zənciri üzrə qida məhsullarının istehsalı və istehlakçılara çatdırılması, yerli və xarici bazarlarda rəqabət qabiliyyətli qida məhsulları hesabına möhkəmlənmə məsələləri diqqət mərkəzində saxlanılmalı, hazırda görülən tədbirlərin səmərəliliyi xeyli artırılmalıdır.

Azərbaycan artıq dünya səviyyəsində iqtisadi islahatlar aparan fəal ölkələrdən hesab olunur və ümumilikdə ölkəmizin özünün rəqabətqabiliyyətliliyi və beynəlxalq imici ildən-ilə yüksəlməkdədir. Təsadüfi deyildir ki, rəqabətqabiliyyətlilik göstəricilərinə görə Azərbaycan MDB ölkələrini xeyli qabaqlayır. Hər il bu istiqamətdə yeni-yeni yanaşmalar, mexanizmlər, islahatyönlü tədbirlər, institusional təkmilləşdirmələr aparılır. O cümlədən qida məhsulları istehsalı sahələrində sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması, innovasiya-investisiya cəlbediciliyinin yüksəldilməsi tədbirləri görülür. İstənilən fəaliyyət subyekti, fərdi sahibkarlar, özünüməşğulluq subyektləri xarici bazarlara çıxmağa ciddi maraq göstərirlər və yeni yaradılmış dövlət qurumları bu problemlərin öhdəsindən gəlməkdə kifayət qədər səmərəli mexanizmlər yaratmağa çalışırlar.

Qida məhsullarının ixracı xeyli stimullaşdırılmalıdır, sahibkarlıq və biznes subyekti qida məhsullarının və rəqabət qabiliyyətinin yüksəldilməsində əhəmiyyətli səviyyədə maraqlıdırlar və bununla bağlı beynəlxalq təcrübənin öyrənilməsinə, yüksək texnologiyaların fəal şəkildə ölkəmizə gətirilməsinə çalışırlar. Hazırda Bakı ətrafında, Abşeron yarımadasında, ölkənin bir çox regionlarında müasir və yüksək texnologiyalar əsaslı qida məhsulları istehsal edən rəqabətqabiliyyətli müəssisələr şəbəkəsinin yaradılması prosesləri sürətlənməkdədir. Bu məsələlər ölkənin, demək olar ki, əksər rayonlarında yaradılan aqroparklar və onlarda fəaliyyət göstərəcək müəssisələr şəbəkəsinin prioritet vəzifələri sırasında yer almışdır.

Təsadüfi deyildir ki, ölkə Prezidentinin qida sektorunun təkmilləşdirilməsi, qida təhlükəsizliyi sisteminin gücləndirilməsi və ölkəmizdə istehsl olunan qida məhsullarının rəqabət qabiliyyətinin artırılması üçün mühüm əhəmiyyət kəsb edən bir sıra Fərmanları və Sərəncamları verilmişdir. Belə

ki, Azərbaycan Respublikasında Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli Fərmanında bu sahədə köklü və fundamental tədbirlərin görülməsi üçün güclü dövlət strukturunun formalaşdırılmasına xüsusi önəm verilmişdir. [4]

Bu baxımdan artıq ölkəmizdə silsilə tədbirlər reallaşdırılmaqdadır və qida məhsullarının təhlükəsizliyi onların rəqabət qabiliyyətinin artırılması üçün elmi əsaslarla işlərin gücləndirilməsi ilə yanaşı ölkəmizdə istehsal olunan qida məhsullarının rəqabətqabiliyyətliliyinin dünya standartları səviyyəsinə qaldırılması, brend markalar altında dünya bazarlarına çıxarılması istiqamətində məqsədli işlər görülməkdədir. Bundan əlavə qida təhlükəsizliyi və qida məhsullarının keyfiyyətinin yüksəldilməsi istiqamətində standartların normativ-hüquqi aktların təkmilləşdirilməsi tədbirləri də qida məhsullarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə əhəmiyyətli şəkildə müsbət təsir göstərməkdədir.

Eyni zamanda ölkəmizdə istehsal olunan qida məhsullarının tədarükünün və təchizatının yaxşılaşdırılması, qida ehtiyatlarının yaradılması və qida bazarlarının fəallığının təmin olunması məsələləri də qida məhsullarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün əsaslı zəmin formalaşdırır. Ölkə Prezidentinin 30 sentyabr 2016-cı il tarixli “Ərzaq məhsullarının tədarükü və təchizatı” ASC-nin fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərmanının reallaşdırılması ilə əlaqədar olaraq bu sahədə pozitiv addımların atılması prosesləri intensivləşmişdir. [1]

Bundan əlavə, ölkə Prezidentinin digər bir 10 fevral 2017-ci il tarixli Azərbaycan Respublikasında “Qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanında qida məhsullarının normativ sənədlərinin təkmilləşdirilməsi, risklərin təhlili, xarici ölkələrə ixrac edilən qida məhsullarının qida təhlükəsizlik sertifikatının verilməsi, məhsulun daşıdığı risk səviyyəsinə uyğun şəkildə bu məhsulların istehsalı, tədarükü, qablaşdırılması, saxlanılması, daşınması və son istehlakçılara çatdırılması ilə bağlı qida zəncirinin bütün mərhələlərində qida təhlükəsizliyinin təmin edilməsinin vacibliyi qeyd olunmuşdur. [2] Şübhəsiz, bu strateji yanaşmalar və bununla bağlı həyata keçirilən dövlət siyasəti, praktiki fəaliyyət mexanizmləri, ölkəmizdə istehsal olunan qida məhsullarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi üçün mühüm şərtlərdəndir.

Qida məhsullarının istehsalı, qida bazarlarında rəqabət mühiti və onun qorunması problemləri, beynəlxalq rəqabətqabiliyyətliliyin təmin edilməsi məsələləri əhalinin etibarlı qida məhsulları ilə təmin olunmasında rəqabətqabiliyyətlilik amilinin qiymətləndirilməsi və dəyərləndirilməsi, mühüm qida məhsullarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi problemləri ilə bağlı məsələlərə kompleks və sistemli yanaşmanın təmin olunması kifayət qədər aktuallığı ilə diqqət çəkir.

Bütün bunlarla yanaşı əhalinin daha təhlükəsiz qida məhsulları ilə təminatı üçün qida məhsullarının keyfiyyət standartlarının maksimum təkmilləşdirilməsi tədbirləri görülməsidir. Ekoloji təmiz qida məhsullarının sistemli şəkildə istehsal olunması mühüm və strateji məsələlərdəndir. İnsan sağlamlığına zərər verən qida məhsullarının istehlakçılara ötürülməsinə yol verilməməlidir. Mühüm qida məhsullarının istehsalı, ehtiyatlarının yaradılması və cəmiyyətin qarşılıqı məsuliyyət hissinin artırılması prioritet məsələlərdəndir.

## *Nəticə*

1. Beynəlxalq səviyyədə kənd təsərrüfatı sektoru sahələri yüksək texnologiyalar əsasında inkişaf etdirilməli, Dövlət Proqramları genişləndirilməlidir.
2. İnsanların həyatı və sağlamlığı üçün tələb olunan qida məhsullarının dayanıqlı və davamlı istehsalı proseslərinin təşkili həyata keçirilməlidir.
3. İqlim dəyişiklikləri ilə bağlı məsələlərdə xüsusilə aparıcı dünya dövlətləri arasında bu istiqamətdə daha sıx əməkdaşlıq formaları hazırlanmalı və öz reallığını tapmalıdır.
4. Dünya dövlətləri və hökumətləri qida məhsulları təhlükəsizliyinin təmin edilməsi məqsədilə daha çox səylər göstərməli və aclıq hallarının qarşısının tamamilə alınması məsələsi gündəmdə olmalıdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin 30 sentyabr 2016-cı il tarixli “Ərzaq məhsullarının tədarükü və təchizatı ilə bağlı” Fərmanı.
2. Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli “Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi haqqında” Fərmanı.
3. “Azərbaycan Respublikasında qida təhlükəsizliyi sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Fərmanı. Bakı, № 1235.
4. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Əsasnaməsi, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli Fərmanı.
5. Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı “Azərbaycan Respublikası Prezidentinin 14 İyul 2017-ci il tarixli Sərəncamı.
6. E.A.Quliyev. Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri. Bakı, 2020. (s. 49)
7. A.F.Abbasov. Ərzaq təhlükəsizliyi. Bakı – 2013. (s. 489)



***Арзу Нураддин кызы Рустамова***
***д.ф.э., Азербайджанский Университет Кооперации***
***arzu.rustam55@gmail.com***


## Решения глобальных проблем безопасности пищевых продуктов


***Резюме***

В условиях, когда сегодня во всем мире растет спрос на продовольствие, проблемы укрепления продовольственной безопасности становятся достаточно актуальными. Несмотря на стратегические подходы к глобальным продовольственным проблемам и определение обязательств перед мировыми державами, за последние 10-15 лет в этих направлениях была решена лишь малая часть глобальных проблем. В мире по-прежнему насчитывается 100 миллионов голодающих и безработных, которые далеки от доступа к экологически чистым продуктам питания.

**Целью исследования является** – объединение мировых держав и международных организаций для обеспечения экологически чистым продовольствием населения планеты.

**Методология исследования заключается в** – использовании общих предложений, инноваций, сравнительного анализа, системных подходов.

**Актуальность исследования основывалась** – на проблемах укрепления продовольственной безопасности под влиянием глобального изменения климата, расширения производства продуктов питания, увеличения производства продуктов питания, развития отраслей воздействия на сельскую местность и сельского хозяйства в целом.

**Результаты исследования также могут** – принести пользу нашей стране путем налаживания более интенсивного и продуктивного сотрудничества в развитии и укреплении системы продовольственной безопасности в экономически развивающихся странах.

**Оригинальность и научная новизна исследования заключается** – в увеличении инвестиций в эту область, принятии устойчивых и систематических мер по увеличению объемов производства продуктов питания, а также разработке механизмов самообеспечения продовольствием этого племени на уровне страны.



***Ключевые слова: глобальная продовольственная безопасность, сельское хозяйство, внешняя торговля, продовольственная безопасность.***

*Arzu Nuraddin Rustamova*
*Phd. Azerbaijan University of Cooperation*
*arzu.rustam55@gmail.com*

## Solutions to Global Food Safety Challenges

**Summary**

In a climate where global food calls are growing today, the problems of strengthening food security are sufficiently current. Despite strategic approaches to global food problems and the determination of commitments to world powers, only a fraction of the global problems ahead have been solved in these directions over the past 10 to 15 years. There are still 100 million people in the world who are starving and unemployed, far from accessible with sustainable food.

**The purpose of the study** – the provision of ecologically clean food for the world's population is to bring together world powers and international organizations.

**The methodology of the study – g**eneral suggestions, innovations, comparative analysis, and systematic approaches are used in the study.

**The application of the study** – under the influence of global climate change, the problems of strengthening food security, expanding food production, increasing food production, and developing rural waste sectors and agriculture in general have been based on high-tech technologies.

**The results of the study** – establishing more intensive and productive cooperation in this area in the development and strengthening of the food security system in economically developing countries can also be beneficial for our country.

**The originality and scientific innovation of the study** – more investments should be made in this area, sustainable and systematic measures should be taken to increase the production volume of food, and the development of self-sufficiency mechanisms for food from this tribe at the country level.

***Key words: global food security, agriculture, foreign trade activity, food security.***